**“Beynəlxalq Elm və Təhsil İdarəçiləri Assosiasiyası” (AISEDA) İctimai Birliyinin Üzvlərin etik davranış Qaydaları**

## 1. Ümumi müddəalar

**1.1.** **Üzvlərin etik davranış Qaydalarının** (bundan sonra - Qaydalar) əhatə dairəsi “Beynəlxalq Elm və Təhsil İdarəçiləri Assosiasiyası” (AISEDA) İctimai Birliyinin (bundan sonra-AISEDA) üzvü olan bütün fiziki və hüquqi şəxslərə şamil edilir. AISEDA-nın hər bir üzvü insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu Qaydaların müddəalarına əməl etməyə borcludur.

## 2. Qaydaların məqsədləri

**2.1.** Bu Qaydaların məqsədi aşağıdakılardan ibarətdir:

**2.1.1.** AISEDA-nın və AISEDA üzvlərinin nüfuzunun artırılması, vətəndaşların AISEDA və onun üzvlərinə etimadının yüksəldilməsi;

**2.1.2.** AISEDA-ya və AISEDA üzvlərinin fəaliyyətində səmərəliliyin və şəffaflığın təmin edilməsi və artırılması;

**2.1.3.** AISEDA üzvlərinin fəaliyyətində maraqların toqquşmasının qarşısını almaq;

**2.1.4.** AISEDA üzvləri tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi;

**2.1.5.** AISEDA üzvlərindən gözlənilən davranış barədə maraqlı tərəflərin məlumatlandırılması;

**2.1.6.** AISEDA-nın və onun üzvlərinin fəaliyyətinin qiymətləndirilməsinə maraqlı tərəflərin təsir imkanlarının genişləndirilməsi.

## 3. Xidməti davranışın hüquqi tənzimlənməsi

**3.1.** AISEDA üzvünün xidməti davranışı bu Qaydalarla ona verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətidir. Üzvlərin xidməti davranışı bu Qaydalarla müəyyən edilmiş etik davranış qaydalarına və prinsiplərinə əsaslanmalıdır.

**3.2.** AISEDA üzvlərinin xidməti davranışı bu Qaydalar və digər normativ hüquqi aktlara uyğun olaraq tənzimlənir.

## 4. AISEDA mühiti və şəraiti

**4.1.** Şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə AISEDA üzvləri öz vəzifə borcunu səmərəli yerinə yetirməyə borcludur.

**4.2.** AISEDA üzvləri bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.

**4.3.** AISEDA üzvü mədəni davranış nümunəsi olmalıdır.

**4.4.** AISEDA üzvü bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır.

**4.5.** AISEDA üzvü fəaliyyətdə olduğu dövrdə maraqların toqquşmasına yol verməməlidir və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.

**4.6.** AISEDA üzvünün xidməti vəzifələri ilə onun şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda, o, ümumi qaydalara müvafiq olaraq, AISEDA üzvlüyünə qəbul olunduqda, habelə bundan sonrakı dövrdə həmin maraqların xarakteri barədə məlumat verməyə borcludur.

**4.7.** AISEDA üzvü AISEDA-da olan məlumatların müvafiq qaydalara uyğun əldə olunması və yayılması mümkünlüyünü təmin etməlidir.

**4.8.** AISEDA üzvü fəaliyyəti zamanı əldə etdiyi məlumatları şəxsi maraqları üçün istifadə edə bilməz.

## 5. Etik davranış qaydalarının həyata keçirilməsinin təmin olunması

**5.1.** AISEDA üzvü tərəfindən etik davranış qaydalarına əməl olunması üçün:

**5.1.1.** AISEDA üzvünün davranışının etik davranış qaydalarına uyğunluğu onun özü, birbaşa və ya yuxarı rəhbəri tərəfindən müntəzəm təhlil edilir;

**5.1.2.** AISEDA üzvü, onun birbaşa və ya yuxarı rəhbəri tərəfindən bu fəsildə nəzərdə tutulmuş tədbirlər görülür;

**5.1.3.** Etik davranış qaydalarının pozulması AISEDA üzvünün intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır.